**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# QARABAĞ PROBLEMİNİN TARİXŞÜNASLIĞI

İxtisas: **5509.01 – Tarixşünaslıq, mənbəşünaslıq və tarixi tədqiqat üsulları**

Elm sahəsi: **Tarix**

İddiaçı: **Könül Ramiz qızı Hüseynova**

fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2025**

Dissertasiya işi Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Mənbəşünaslıq, tarixşünaslıq və metodika" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** tarix elmləri doktoru, professor
**Anar Camal oğlu İsgəndərov**

**Rəsmi opponentlər:** tarix elmləri doktoru,dosent
**Fərhad Rafiq oğlu Cabbarov**

tarix üzrə fəlsəfə doktoru
**Ədalət Xankişi oğlu Mustafayev**

tarix üzrə fəlsəfə doktoru
**Nurlan Paşa oğlu Nəsirov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu nəzdində fəaliyyət göstərən BED 1.30/1 Birdəfəlik Dissertasiya şurası

Dissertasiya Şurası sədri: tarix elmləri doktoru, professor
______________________ **Kərim Kərəm oğlu Şükürov**

Dissertasiya Şurasının
elmi katibi: tarix elmləri doktoru, dosent
______________________ **İlqar Vahid oğlu Niftəliyev**

Elmi seminarın sədri: tarix elmləri doktoru, dosent
______________________ **Vaqif Şirin oğlu Abışov**

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Tədqiq edilmiş problem xalqımızın tarixinin ən faciəli, ağrılı, ədalətsiz, əsrlərlə davam edən və bu gün öz həllini tapmış bir problemin və onunla bağlı yazılmış tarixi əsərlərin öyrənilməsinə, təhlilinə həsr olunub. Keçmişdə tariximizin öyrənilməsində yol verilmiş səhvlərin gələcəkdə təkrarlanmaması baxımından da mövzu kifayət qədər aktualdır.

XX əsrin sonlarında dünyanın ən böyük imperiyalarından biri olan SSRİ-nin dağılması bəşər cəmiyyətinin tarixində mühüm və mütərəqqi bir hadisə olub, yeni dünya nizamının formalaşmasına müsbət təsir göstərdi. SSRİ-nin iflasına səbəb olan şovinist, milli ayrı-seçkiliyə əsaslanan, anti-türk, anti-müsəlman, xristianpərəst və qərəzli siyasətinin nəticəsi idi ki, onun dağılması ərəfəsində ölkədə 30-a qədər milli-münaqişə ocaqları yaranmışdı.

1985-ci ildə M.S.Qorbaçov Sov.İKP MK-nın Baş Katibi seçildikdən sonra həyata keçirdiyi "yenidənqurma siyasəti" tənəzzülə uğramaqda olan dövlətin siyasi böhranını daha da dərinləşdirdi. Nəticədə 1991-ci il 18 oktyabr tarixində dövlət müstəqilliyini bərpa etmiş xalqımız Qarabağ ermənilərinin və Ermənistan Respublikasının Azərbaycanın əzəli torpağı olan Qarabağın Azərbaycandan qoparılıb Ermənistana birləşdirilməsi məqsədi güdən işğalçılıq siyasəti və təcavüzü ilə üzləşdi. Moskvanın dəstəklədiyi ermənilər Azərbaycanın Dağlıq Qarabağ bölgəsini ələ keçirmək məqsədilə millətlərin öz müqəddəratını təyin etməsi hüququ bəhanəsi ilə Azərbaycan dövlətinə tabe olmaqdan imtina etdilər və "Qarabağ problemi" yarandı. 1988-1994-cü illər I Qarabağ müharibəsi nəticəsində Azərbaycan öz torpaqlarının 20 faizini itirdi, bir milyondan çox azərbaycanlı öz dədə-baba yurdlarından, həm Qarabağdan, həm də Ermənistan ərazisindən (keçmiş Qərbi Azərbaycandan) vəhşicəsinə qovuldu. 1992-ci ildə münaqişəni dinc yolla həll etmək üçün ATƏT-in Minsk qrupu yaradıldı. BMT-nin TŞ Ermənistanın öz qoşunlarını Qarabağ ərazisindən qeyd-şərtsiz çıxarılmasına dair 4 qətnamə qəbul etsə də, həmin qətnamələr həyata keçirilmədi. 1994-cü ildə Qırğızıstanın mərkəzi Bişkekdə RF-nin vasitəçiliyi ilə imzalanmış protokolla atəşkəs elan edildi və I Qarabağ müharibəsi bitdi.

I Qarabağ müharibəsindən keçən təxminən 30 il ərzində ermənilər demək olar ki, hər gün atəşkəs rejimini pozmuş, müxtəlif təxribatlar törədərək Azərbaycanı hərbi əməliyyatlara başlamağa sövq etmişdilər. 2016-cı il aprel ayının əvvəllərində Ermənistan dövlətinin Azərbaycan Respublikasına qarşı növbəti silahlı təxribatını önləmək üçün həyata keçirilmiş hərbi əməliyyatlar həm ermənilərə, həm də bütün dünyaya göstərdi ki, Azərbaycan xalqı heç bir zaman bu işğalla barışmayacaq və öz torpaqlarını qanı və canı bahasına olsa belə azad edəcəkdir. Aprel döyüşləri təmas xəttini də dəyişdirdi. Prezident İlham Əliyevin dediyi kimi: *"Bu döyüşlər göstərdi ki, xarici yardım almadan Ermənistan işğal edilmiş torpaqları işğal altında saxlaya bilmir və bilməz"*.[1]

2020-ci il iyulun 12-17-də Azərbaycan-Ermənistan dövlət sərhəddinin Tovuz rayonu istiqamətində ermənilər növbəti dəfə təxribata əl atsa da bunun qarşısı alındı. Tovuz döyüşləri ölkəmizdə xalq və Prezident, xalq və ordu birliyini bir daha nümayiş etdirdi. 2020-ci il sentyabrın 27-də ermənilər yenə də təxribata əl atdılar və Azərbaycan Ordusu buna cavab olaraq əks-hücum əməliyyatına başladı. 44 gün davam edən II Qarabağ müharibəsi nəticəsində Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 9 noyabr tarixinədək 5 şəhər, 4 qəsəbə və 286 kəndi işğaldan azad etdi.[2]

2020-ci il 10 noyabr tarixində 3 dövlətin – Rusiyanın, Azərbaycanın və Ermənistanın dövlər başçıları Bəyanat imzaladılar və həmin gündən Qarabağın dağlıq hissəsindəki münaqişə zonasında atəşkəs və hərbi əməliyyatların tam dayandırılması elan olundu. Bəyanata əsasən 2020-ci il noyabrın 20-də Ağdam, 25-də Kəlbəcər və dekabrın 1-də isə Laçın rayonu danışıqlar yolu ilə azad edildi.[3] Beləliklə II Qarabağ müharibəsi Ermənistanın tam kapitulyasiyası ilə başa çatdı. Lakin bu Ermənistana dərs olmadı. 2023-cü il 19 sentyabrda antiterror əməliyyatı

---

[1] İlham Əliyev Azərbaycan Ordusunun aprel qələbələrinin ildönümü ilə əlaqədar bir qrup hərbçilərlə görüş keçirib. 31 mart, 2017. URL: https://president.az/az/articles/view/23230

[2] İşğaldan azad olunan şəhər, qəsəbə və kəndlərimiz. 1 dekabr 2020. URL: https://mod.gov.az/az/news/işğaldan-azad-olunan-şeher-qesebe-vekendlerimiz-28583.html

[3] İşğaldan azad olunan şəhər, qəsəbə və kəndlərimiz. 1 dekabr 2020. URL: https://mod.gov.az/az/news/işğaldan-azad-olunan-şeher-qesebe-vekendlerimiz-28583.html

ilə Ermənistan növbəti dəfə diz çökdürüldü və Azərbaycanın ərazi suverenliyi tam təmin edildi.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsi və 1 günlük antiterror əməliyyatında Azərbaycan Ordusunun erməni faşizmi üzərində qazandığı qələbə 30 il davam etmiş münaqişəni həm hərbi, həm də siyasi yolla həll etdi və Dağlıq Qarabağ münaqişəsi başa çatdı. Azərbaycanda artıq Dağlıq Qarabağ adlı inzibati ərazi vahidi mövcud deyil. Qarabağda xalqımızın qazandığı bu böyük zəfər də tədqiq etdiyimiz mövzunun bu gün nə dərəcədə böyük aktuallıq kəsb etdiyini göstərir. Bundan sonra müxtəlif elm və mədəniyyət sahəsində çalışan ziyalılarımızın qarşısında azad Qarabağla bağlı daha sanballı tədqiqatlar aparmaq kimi vəzifə durur.

Sovet işğalı dövründə Azərbaycan tarixi təhrif edilmiş və o formada da təbliğ edilmişdir. Xüsusilə, xəyali «Böyük Ermənistan» dövlətinin varlığına inanan və o istiqamətdə səy göstərən ermənilərin XX əsr boyunca xalqımıza qarşı dəfələrlə təşkil edilən soyqırımları SSRİ dağılana qədər tam halda, obyektiv tədqiq və təhlil edilməmişdir. Azərbaycanın tarixi torpaqlarının şimal hissəsinin 1991-ci ildə yenidən müstəqilliyini əldə etməsindən sonra tariximizin təhriflərdən arındırılması və obyektiv şəkildə tədqiqi üçün araşdırmaçılarımız qarşısındakı bütün əngəllər qalxmış oldu. Ulu öndər Heydər Əliyevin son 200 illik tariximizin hərtərəfli və obyektiv tədqiq olunması haqqında göstərişləri tariximizin daha düzgün və hərtərəfli öyrənilməsinə imkan verdi.

Qarabağ probleminin yaranmasının tarixi köklərinin, səbəblərinin, mahiyyətinin, xarakteri və məqsədinin istər vətən, istərsə də xarici tarixşünaslıqda necə və hansı səviyyədə əks olunmasını araşdırmaq müasir Azərbaycan tarixşünaslığı qarşısında duran ən aktual problemlərdən sayılır.

Məlum olduğu kimi münaqişənin ilk günlərindən informasiya müharibəsindəki üstünlüyündən faydalanan ermənilər onun guya Azərbaycanla Dağlıq Qarabağ erməniləri arasında baş verdiyini dünyaya car çəkirdilər. Hətta, bu 1992-1993-cü illərdə münaqişəni həll etmək üçün BMT TŞ tərəfindən qəbul edilən sənədlərə də öz təsirini göstərmiş və sənəddə bu münaqişə "Dağlıq Qarabağ bölgəsində və onun ətrafında münaqişə" kimi qiymətləndirilmişdi. Hakimiyyətə gəldiyi ilk gündən Ümummilli lider Heydər Əliyev münaqişənin Dağlıq Qarabağla Azərbaycan arasında deyil, məhz Ermənistanla Azərbaycan arasında baş ver-

diyini dəfələrlə əsaslandırmışdır. Bununla bağlı Ulu Öndər belə deyirdi: *"Biz deyirik Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi. Amma qalanları nə deyir – Dağlıq Qarabağ münaqişəsi. Çünki hamısı hesab edir ki, bu münaqişə iki ölkənin arasında deyil, Dağlıq Qarabağla Azərbaycan arasındadır".*[4] Ulu öndər Heydər Əliyev tərəfindən başlanılmış və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən davam etdirilən məqsədyönlü siyasətin və fəaliyyətin nəticəsi olaraq bu gün xarici tarixşünaslıqda Azərbaycan həqiqətlərini obyektiv əks etdirənlər az deyil. Tədqiqata dair mövcud fikirləri ümumiləşdirmək, Avropa və Amerika, Rusiya, İran, Türkiyə və Ermənistan tarixçilərinin əsərlərində problemə necə və hansı şəkildə yanaşıldığını araşdıraraq ictimaiyyətə çatdırmaq mövzunun aktuallığını şərtləndirən əsas amillərdən biridir.

Sovet dövründə problemin tədqiqinin daha çox ermənilərin ümidinə buraxılması bu gün bu mövzunu tədqiq edənlər üçün böyük çətinliklər doğurur. Bununla belə Dağlıq Qarabağ probleminin Cümhuriyyət xadimlərinin, Sovet dövrü və müstəqillik dövrü tədqiqatlarında ayrı-ayrılıqda öyrənilməsi mövzunun tədqiqində yol verilən boşluqları üzə çıxarmaq baxımdan böyük önəm kəsb edir. Bu da mövzunun daha dərindən öyrənilməsini zəruri edir və gələcək tədqiqatlar üçün bir yol müəyyənləşdirir. Çünki tarixşünaslığımızda indiyə qədər bu istiqamətdə sistemli bir araşdırma aparılmamışdır.

Qarabağ probleminin həlli istiqamətində İran İslam Respublikasının Qafqaza dair siyasətini ayrıca tədqiq etmək zəruri olmuşdur. Bu baxımdan İranın Qafqaz siyasətində Qarabağ hadisələrinə münasibətdə İİR-in mövqeyinin Azərbaycan və xarici İranşünaslıqda xüsusi tədqiqat obyektinə çevrilməsi bu mövzunun aktuallığını şərtləndirir. Doğrudur, bu istiqamətdə Sübhan Talıblı tərəfindən tarixşünaslığımızda sanballı bir tədqiqat işi [5] ortaya qoyulub. Lakin həmin əsər yalnız 1991-2005-ci illəri əhatə etdiyinə görə sonrakı illərdə bu istiqamətdə aparılan tədqiqatlar kənarda qalır. Bu səbəbdən də Qarabağ probleminin İran tarixşünaslığında son illərə qədər elmi aspektdən faktlara və mənbələrə əsasən tədqiqi mövzunun aktuallığını şərtləndirir.

---

[4] Qasımlı, V., Şiriyev, Z., Vəliyeva, Z. İran-Ermənistan münasibətləri: geosiyasi reallıq, versus, siyasi iddialar. Bakı, 2011. URL: http://elibrary.bsu.edu.az/files/books_460/N_224.pdf

[5] Talıblı, S.Ə. İran İslam Respublikasının Qafqaz siyasətində Dağlıq Qarabağ problemi (1991-2005-ci illər) / S.Ə.Talıblı. – Bakı: Elm və təhsil, – 2016. – 362 s.

Erməni tarixçilərinin qərəzli iddialarla və təkziblərlə dolu olan, istər sovet dövrü, istərsə də müstəqillik dövründə yazdığı əsərlərin problemə əks cəbhədən olan subyektiv yanaşması da təqdim olunmuşdur. Bu da mövzunu aktual edir.

Türkiyə tarixşünalığında problemə yanaşma çağdaş vətən tarixşünaslığına oxşardır. Bununla belə Türkiyə tarixçilərinin əsərlərinin sistemli şəkildə tədqiqi mövzunun həm onlar, həm də bizim üçün son dərəcə əhəmiyyətli və vacib olması ilə əlaqədardır.

Beləliklə, vətən və xarici tarixşünaslıqda Qarabağ probleminin tədqiqi vəziyyətini və səviyyəsini öyrənmək, bu sahədə əldə edilən uğurları və çatışmazlıqları ümumiləşdirmək, gələcək tədqiqat imkanlarını və perspektivlərini müəyyənləşdirmək üçün vacibdir. Bu tarixi təcrübə yeni baxışlar sisteminin formalaşmasına da yardım edə bilər.

Qeyd edək ki, bu mövzu istər vətən, istərsə də xarici tarixşünaslıqda indiyə qədər ayrıca tədqiqat obyekti olmamış, sistemli şəkildə araşdırılmamışdır. Yazılan əsərlər əsasən problemin tarixinə həsr olunduğuna görə problemin vətən və xarici tarixşünaslıqda öyrənilmə səviyyəsi diqqətdən kənarda qalmışdır. Azərbaycanın Qarabağ bölgəsinin dağlıq hissəsinin Ermənistan tərəfindən işğal edilməsi, Qarabağın tarixinin erməni alimləri tərəfindən saxtalaşdırması, dünyada erməni terrorunun təhlükəli hal alması problemin tarixşünaslığını araşdırmağı zəruri edir.

Vətən tarixşünaslığında bu problem xüsusi bir tədqiqatın obyekti olmasa da, bəzi tədqiqat əsərlərində qısa şəkildə də olsa mövzunun tarixşünaslığı ilə bağlı müəyyən fikirlərə yer verilmişdir. Hətta bəzi tədqiqatçılar tərəfindən Qarabağ probleminin İran tarixşünaslığında işıqlandırılması məsələsi ayrıca, yaxud da ümumi tarixşünaslıq predmetli tədqiqatlar çərçivəsində araşdırma mövzusu olmuşdur. Bu tip əsərlərə misal olaraq Sübhan Talıblının[6], Eynulla Mədətlinin[7] əsərlərini misal göstərə bilərik. Məhərrəm Zülfüqarlının əsərində[8] isə problemin sovet dövrü tarixşünaslığının tədqiqinə diqqət yetirilmişdir. Tədqiq

[6] Talıblı, S.Ə. İran İslam Respublikasının Qafqaz siyasətində Dağlıq Qarabağ problemi (1991-2005-ci illər) / S.Ə.Talıblı. – Bakı: Elm və təhsil, – 2016. – 362 s.
[7] Mədətli, E.Y. Azərbaycan həqiqətləri İran tarixşünaslığında / E.Y.Mədətli. – Bakı: Təhsil, – 2011. – 272 s.
[8] Zülfüqarlı, M.P. Azərbaycan tarixi. İkinci respublika dövrünün tarixşünaslığı / M.P.Zülfüqarlı. – Bakı: Çaşıoğlu, – 2001. – 312 s.

olunan problemə dair Sovet dövrü vətən, erməni və rus tarixşünaslığı ilə bağlı da bu əsərdən müəyyən məlumatlar əldə etmək mümkündür. Nazim Məmmədovun "Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin tarixi sovet tarixşünaslığında" əsərində [9] isə problemin Sovet dövrü tədqiqatlarında əksi geniş şəkildə tədqiq olunmuşdur.

Tarixşünaslığımızda Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları məsələsinin tədqiqinə, əsasən ermənilərin Qarabağın dağlıq hissəsini işğal etmək və bu məqsədlə Azərbaycana qarşı təcavüzə başladıqları andan etibarən diqqət yetirilməyə başlanmışdır. Dağlıq Qarabağ probleminə dair bir sıra əsərlər nəşr edilmişdir. Hər yazılan yeni əsərdə mövzunun öyrənilmə səviyyəsinə də qısaca nəzər salınmışdır. Bu baxımdan Y.Mahmudovun, K.Şükürovun[10], T.Köçərlinin[11], Q.Hacıyevin[12], İ.Əliyevin[13], S.Babayevin[14], R.İmanovun[15], N.Məmmədovun[16], Z.Sultanovun[17], Q.Qeybullayevin[18], H.Abdallının[19], Q.Çaxmaqlının[20] və digər tarixçi alimlərin tədqiqat əsərləri məhz Qarabağın

---

[9] Məmmədov, N.R. Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin tarixi sovet tarixşünaslığında / N.R.Məmmədov. – Bakı: Avropa, – 2015. – 334 s.

[10] Mahmudov, Y.M., Şükürov, K.K. Qarabağ: Real tarix, faktlar, sənədlər / Y.M.Mahmudov, K.K.Şükürov. – Bakı: Təhsil, – 2005. – 380 s.

[11] Köçərli, T. Qarabağ: yalan və həqiqət / T.Köçərli. – Bakı: Əbilov, Zeynalov və oğulları, – 1998. – 244 s.

[12] Hacıyev, Q.Ə., Nuriyev, S. Vladimir Kazimirovun "Qarabağa sülh" arzusu və əsl niyyəti / Q.Ə.Hacıyev, S.Nuriyev. – Bakı, – 2011. – 131 s. və d.

[13] Əliyev, İ.H. Dağlıq Qarabağ. Tarix. Faktlar. Hadisələr / İ.H.Əliyev. – Bakı: Elm, – 1989. – 120 s.

[14] Babayev, S.A. Müharibə: 1988-1993 / S.A.Babayev. – Bakı: Azərbaycan nəşriyyatı, – 1995. – 120 s.

[15] İmanov, R.C. Azərbaycanın ərazi bütövlüyünə qəsd-qondarma Dağlıq Qarabağ Muxtar Vilayəti / R.C.İmanov. – Bakı: Adiloğlu, – 2005. – 260 s. və d.

[16] Məmmədov, N.R. Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin tarixi sovet tarixşünaslığında / N.R.Məmmədov. – Bakı: Avropa, – 2015. – 334 s. və d.

[17] Sultanov, Z.K. Qarabağın qara günləri/ Z.K.Sultanov. – Bakı: Yazıçı, – 1992. – 152 s. və d.

[18] Qeybullayev, Q.Ə. Qarabağ (etnik və siyasi tarixinə dair) / Q.Ə.Qeybullayev. – Bakı: Elm, – 1990. – 248 s.

[19] Abdallı, H.İ. Azərbaycan, Dünya birliyi və Qarabağ problemi / H.İ.Abdallı. – Bakı: Yeni nəsil, – 2003. – 129 s. və d.

[20] Çaxmaqlı, Q.Q. Dağlıq Qarabağ işğaldan əvvəl ... və sonra / Q.Q.Çaxmaqlı. – Bakı: Hərbi nəşriyyat, – 2009. – 136 s. və d.

iqtisadi, siyasi və mədəni tarixinə həsr edilmişdir. Bu əsərlərdə problemin ayrı-ayrı aspektləri, əsasən obyektiv şəkildə işıqlandırılmışdır. Bu əsərlərdə problemin ayrı-ayrı aspektləri, əsasən obyektiv şəkildə işıqlandırılmışdır. Bu tədqiqatlarda ermənilərin xalqımıza qarşı müxtəlif bölgələrimizdə törətdikləri soyqırımları, "Böyük Ermənistan" yaratmaq üçün saxtakarlığı öz amalına çevirmiş erməni alimlərinin Dağlıq Qarabağın Ermənistana aid olması iddialarının əsassızlığı tarixi faktlarla sübuta yetirilmişdir.

Avropa və Amerika tədqiqatçılarının əsərlərində Qarabağ probleminin tədqiqi məsələsi isə istər vətən, istərsə də xarici tarixşünaslıqda demək olar ki, tədqiq olunmamışdır. Bu barədə Nazim Məmmədovun, E.Məmmədlinin əsərlərində[21] qısaca da olsa məlumatlara rast gəlirik. Xarici tarixşünaslıqda isə nisbətən T.Svyatoxovski, S.Kornelli və A.Alştadtın əsərlərində[22] müəyyən ümumiləşdirici məqamlara rast gəlinir.

Müasir Rusiya tarixşünaslığında Oleq Kuznetsovun tədqiqatlarını fərqləndirmək olar. Onun Qarabağa dair tədqiqatları [23] Rusiya tarixşünaslığındakı digər əsərlərlə müqayisədə müəyyən qədər obyektivliyə yaxın hesab edilə bilər.

Problemin Türkiyə tarixşünaslığı da ayrıca tədqiqat mövzusu olmamışdır. T.Demirtepe, E.Efegil, R.Ekşi, E.Karaca, N.Onk kimi Tür-

---

[21]Məmmədov, N.R. Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətinin tarixi mənbələrdə / N.R.Məmmədov. – Bakı: Elm, – 2013. – 845 s.; Məmmədli, E.C. Azərbaycan-Böyük Britaniya münasibətləri (1991-2003) / E.C.Məmmədli. – Bakı: Adiloğlu, – 2003. – 173 s.

[22] Svyatoxovski, T. Rusiya Azərbaycanı 1905–1920-ci illər: (Kitabdan parçalar) // Azərbaycan, – 1989. № 11, – s. 117-149; Svante, S. Cornell. Azerbaijan since independence / E.Svante. – USA: Routledge, – 2011. – 512 p.; Altstadt, A.L. The Azerbaijani Turks: power and identity under Russian rule / A.L.Altstadt. – California: Hoover Press, – 1992. – 331 p.

[23] Kuznetsov, O. Mərkəzi Qafqaz: sivilizasiyaların toqquşmasına retrospektiv baxış (məqalələr toplumu) / O.Kuznetsov. – Bakı: Qafqaz Nəşriyyat Evi, – 2013. – 120 s.; Кузнецов, О. Нагорно-Карабахский конфликт: Столкновение цивилизаций»? // – Кавказ и Глобализация. – 2013, том 7. вып. 1-2, – с.94-108; Кузнецов, О. Этноконфессиональные истоки транснационального армянского терроризма (историко-культурологический анализ)// – Баку: Strateji təhlil. – 2016, № 3-4 (17-18), – с. 65-66.

kiyə tarixçilərinin problemə dair tədqiqatlarının [24] əsas istinad mənbəyi vətən tarixşünaslığı olduğuna görə onların fikirləri Azərbaycan tarixçiləri ilə demək olar ki, üst-üstə düşür.

Erməni tarixşünaslığında tədqiqata cəlb olunan problemə ümumi şəkildə nəzər salınmışdır. Erməni tarixşünaslığı istər Qarabağa, istərsə də Azərbaycanın digər ərazilərinə erməni iddialarının «əsaslandırılması» ilə doludur. Z.Balayanın uydurmalarına görə guya XIX əsrin əvvəlləri Qarabağda yaşayanların 98 faizi ermənilər olmuşdur. Əslində isə XIX əsrin əvvəllərində çar Rusiyasının erməniləri tarixi Azərbaycan torpaqlarında kütləvi şəkildə məskunlaşdırmasına qədər istər bugünkü Ermənistan ərazisində, istərsə də Dağlıq Qarabağda əhalinin milli tərkibində azərbaycanlılar üstünlük təşkil etmişdir. Ermənilərin Qafqaza gəlmə olmasını XIX əsr rus müəllifləri - N.N. Şavrov[25] və V.L.Veliçko[26] da təsdiq edirlər.

Belə aydın olur ki, əslində Qafqazın tarixini dərinliyinə qədər bələd olan beynəlxalq təşkilatlar, dünyanın aktor dövlətləri ermənilərin işğalçılıq niyyətlərindən xəbərsiz deyildir. Sadəcə siyasi maraqları və xristian həmrəyliyi baxımından erməniləri himayə edirlər. Son 200 il ərzində ermənilər "istehsal etdikləri tarixi materialları" özləri üçün tarixi mənbə kimi qələmə verməklə Azərbaycana qarşı sözün əsl mənasında səlib yürüşünün öncülü olmuşdular. Bu səbəbdən bu mövzunun tədqiqi ilə əldə olunan obyektiv nəticələrin geniş şəkildə təbliğinə də ehtiyac duyulur.

---

[24] Demirtepe, T.M. Dağlık Karabağ Sorunu: Dar Alanda Büyük Oyun / T.M.Demirtepe. – Ankara: USAK, – 2011. – 112 s.; Efegil, E., Kasımlı, C. Dağlık Karabağ üzerine yazılar / E.Efegil, C.Kasımlı. – İstanbul: Gündoğan yayınları, – 2015. – 252 s.; Ekşi, R. Şanlı Tarihi, Acı Talihi Karabağ / R.Ekşi. – İstanbul: Doğu Kütüphanesi, – 2010. – 278 s.; Karaca, E. SSCB Sonrası Türkiye Siyasasının Karabağ Mesaisi 1991-1994 / E.Karaca. – Ankara: Gece Kitaplığı, – 2018. – 228 s.; Onk, N. Azerbaycan Karabağ tarihi / N.Onk. – İstanbul: Fatih ofset, – 1997. – 142 s. və d.

[25] Шавров, Н.Н. Новая угроза русскому делу в Закавказье: предстоящая распродажа Мугани инородцам; Записка генералъного консула России в Эрзеруме Маевского / Н.Н.Шавров. – Баку: Элм, – 1990. – 156 с.

[26] Величко, В.Л. Кавказ русское дело и междуплеменные вопросы / В.Л.Величко. – Баку: Элм, – 1990. – 224 с.

Tədqiqata cəlb edilmiş tarixi əsərlərdəki məlumatlar mənbələrdəki faktlar və məlumatlar ilə müqayisəli və tənqidi şəkildə öyrənilmişdir. Buna görə də problemin tədqiqi zamanı bir çox mənbələrə müraciət olunmuşdur. Bu mənbələr aşağıdakı kimi təsnif etmək olar:

- Çap olunmuş arxiv sənədləri;
- Tərcümə olunaraq çap olunan mənbələr;
- Mətbuat və KİV-dən götürülmüş məlumatlar;
- Mövzuya aid əldə olunan elektron resurslar.

Tədqiqatın gedişində dərc olunan sənəd topluları içərisində 1990-1993-cü illərə dair toplunu [27], Dağlıq Qarabağ problemi ilə bağlı Avropa Şurasının hüquqi sənədlərini[28] xüsusilə qeyd etmək lazımdır. 1990-1993-cü illərə dair sənədlər toplusunda ulu öndər Heydər Əliyevin siyasi fəaliyyətinin 1990-ci il 22 iyul tarixindən 1993-cü il 9 iyun taixinədək olan dövrünə aid rəsmi sənədlər nəşr olunub. Bu toplu Qarabağ münaqişəsinin dərinləşdiyi və daha da kəskin hal aldığı bir dövrə aid olduğuna görə tədqiqat üçün olduqca əhəmiyyətlidir. Məsələn, sənədlər içərisində 1990-cı ildə "Naşe delo" qəzetinin 4-cü sayında Ümummilli lider Heydər Əliyevin müsahibəsində belə bir fikir öz əksini tapmışdır: *"Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsidir və belə də qalmalıdır."*[29]. Yaxud da müsahibənin bir başqa yerində Ümummilli lider Heydər Əliyev Azərbaycan KP MK-nın I katibi olarkən Dağlıq Qarabağdakı mövcud vəziyyət barədə deyirdi ki, vəzifədə olduğu dövrdə "*Dağlıq Qarabağda vəziyyət sabit olmuş, DQMV-nin sakinlərindən KP MK-ya Azərbaycanın tərkibindən çıxmaq barəsində heç bir müraciət daxil olmamışdı"*.[30] Mənbədə öz əksini tapan bu fikirlər Ulu Öndərin problemə qarşı münasibətini, tutduğu mövqenin necə olması barədə ümumi fikir formalaşdırır.

Tədqiqatın hazırlanmasında yeri gəldikcə orta əsrlər və yeni dövrlə bağlı tərcümə olunaraq çap olunan mənbələrə də müxtəlif fikir-

---

[27] Qayıdış: 1990-1993 sənədlər toplusu. – Bakı: "Azərbaycan" nəşriyyatı, – 2008. – 840 s.

[28] Abdullayev, E.İ. Dağlıq Qarabağ problemi Avropa Şurasının hüquqi sənədlərində / E.İ.Abdullayev. – Bakı: Təhsil, – 2006. – 286 s.

[29] Qayıdış: 1990-1993 sənədlər toplusu. – Bakı: "Azərbaycan" nəşriyyatı, – 2008. – s. 31-32

[30] Yenə orada, s. 33

ləri tənqid və ya təsdiq etmək üçün müraciət olunmuşdur. Bu mənbələr içərisində xüsusilə Qarabağın tarixi ilə bağlı yazılan Qarabağnamələri [31], Hüsaməddin Məmmədov tərəfindən tərcümə olunan Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftərini qeyd edə bilərik. 1727-ci il tarixli "Müfəssəl dəftər"ə görə, Gəncə-Qarabağ əyaləti üzrə qeydə alınmış 121.975 nəfərdən 80,340 nəfəri (65,9%) türk-müsəlman, 37.885 nəfəri (31%) xristianlar və 3.750 nəfəri (3,1%) isə kürdlər olmuşdu.[32] "Qarabağ əyalətinin təsviri" adlı mənbə də tədqiq etdiyimiz problemin tədqiqi baxımından mühüm əhəmiyyət daşıyır. Belə ki, bu mənbə 1823-cü ildə Gürcüstandakı baş hakim polkovnik Yermolov və həqiqi mülki müşavir Mogilevskinin göstərişi ilə tərtib edilmişdir. Orijinalı əsasında 1866-cı ildə Tiflisdə yenidən nəşr edilmişdir. Həmin təsvirdəki məlumatlara görə, bütün Qarabağ əyalətində 18.563 ailə qeydə alınmış, onlardan da yalnız 1559 ailə xristian əhalinin payına düşmüşdü.[33]

Sovet mətbuatı da bir mənbə kimi özünəməxsus xüsusiyyətlərə malikdir. İlk növbədə qeyd etmək lazımdır ki, birpartiyalı sistem və avtoritarizm SSRİ ərazisində partiya orqanlarından başqa hər-hansı alternativ təbliğat və təşviqat aparatının olmasını qadağan edirdi. Bu baxımdan sovet dövr mətbuatı yalnız Kommunist partiyası və sovet hökumətini təmsil edirdi. Senzur orqanları mətbuatı ciddi nəzarətdə saxladı. Dağlıq Qarabağ kimi problemin tədqiqində Kommunist partiyasının rəsmi mətbu orqanı olan "Kommunist" qəzetindən[34] istifadə etdiyimizə görə bu xüsusiyyəti də nəzərə almağa çalışmışıq.

---

[31] Qarabağnamələr: [2 kitabda] /tərt. edən və çapa haz. N. Axundov ; elmi red. A. Fərzəliyev. – Bakı: Yazıçı, – k.2. – 1989. – 192 s.

[32] Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri. Ön söz, tərcümə, qeyd və şərhlərin müəllifi Hüsaməddin Məmmədov - Qaramanlı. – Bakı: Şuşa, – 2000. – s. 17

[33] Описание Карабахской провинции (Составленное в 1823 году, по распоряжению главноуправляющего в Грузии Ермолова). – Тифлис: типогр. гл. упр. наместника Кавказа, – 1866. – с. 220-235, 242-245, 310-337

[34] Dağlıq Qarabağ: Həyəcanlı sətirlər. Kommunist. 1988 fevral – 1989 sentyabr. – Bakı: Kommunist, – 1989. – 480 s.; Kommunist. – 1988, 1 iyul. – s. 5; Kommunist. – 1988, 22 may. – s. 4 və d.

Mövzuya aid əldə olunan elektron resurslar da problemin tədqiqində mənbə rolunu oynayır. Xüsusilə də mətbuatda Dağlıq Qarabağ problemi ilə bağlı dərc olunan çıxışları, müsahibələri [35] qeyd edə bilərik.

Bütövlükdə bu tədqiqat mövzusu zəngin mənbə bazasına malikdir. İstifadə edilməsi zəruri olan mənbələr kifayət qədər olsa da, bizim əsas araşdırma mövzumuz tarixşünaslıq olduğuna görə bu çərçivədən çıxmadan ehtiyac duyulduqca müəyyən mənbələrə müraciət etməyə çalışmışıq.

**Tədqiqatın obyekti və predmeti.** Qarabağ probleminin tarixşünaslığı dissertasiya işinin əsas tədqiqat obyektidir. Tədqiqatın predmeti isə bu münaqişə ilə bağlı tarixşünaslıqda öz əksini tapan fikirləri təhlil edib obyektiv nəticələr əldə etməkdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi Qarabağ probleminin tarixşünaslığını tədqiqidir. Bu məqsədlə Qərb dövlətlərinin, Rusiya, Türkiyə, İran və Ermənistanın siyasətində Qarabağ münaqişəsi ilə bağlı Azərbaycan, ingilis, rus, türk, fars, erməni və digər dillərdə olan müxtəlif əsərlər tədqiqata cəlb edilib. Aparılan tədqiqatın nəticəsi olaraq elmi ümumiləşdirmələr edilib və məsələnin əsl mahiyyətinin üzə çıxarılmasına çalışılıb. Qarşıya qoyulan məqsəd aşağıdakı vəzifələrin müəyyən edilməsini vacib edir. Belə ki:

- Dağlıq Qarabağ ifadəsinin yaranma tarixinə nəzər salıb, bütövlükdə bu adın mənbələrdə və tədqiqat əsərlərində izahını tədqiq etmək,
- Araşdırılan problemin vətən tarixşünaslığında öyrənilmə səviyyəsini mərhələli şəkildə, yəni Azərbaycan Xalq Cümhuriyyəti, sovet və müstəqillik dövrü tədqiqatları əsasında araşdırmaq,
- Tədqiqata cəlb edilən mövzu ilə bağlı Avropa və Amerika tarixçilərinin əsərlərində mövcud olan fikirləri müəyyənləşdirib ümumiləşdirmək,
- Rusiya tarixçilərinin problemə münasibətini müəyyənləşdirmək, tədqiq və təhlil edib, onların yanaşmasının mahiyyətini elmi əsaslarla açıqlamaq,

---

[35] Qasımlı, V., Şiriyev, Z., Vəliyeva, Z. İran-Ermənistan münasibətləri: geosiyasi reallıq, versus, siyasi iddialar. Bakı, 2011. URL: http://elibrary.bsu.edu.az/files/books_460/N_224.pdf; Cane, H. Narco Karabakh. Inside the global nexus for transnational crime. 2019. URL: http://narcokarabakh.net/en/news/book_launched və d.

- İran tarixçilərinin Dağlıq Qarabağ probleminə münasibətini araşdırmaq,
- Erməni tarixçilərinin əsərlərində Qarabağ problemini saxtalaşdırma cəhdlərini və əsassız iddialarını müəyyənləşdirmək,
- Türkiyə tarixçilərinin Qarabağ məsələsi ilə bağlı mövqeyini açıqlamaq,
- Qarabağ münaqişəsinə münasibətin mahiyyətini elmi əsaslar üzrə təkzibolunmaz faktlara söykənməklə açıqlamaq,
- Gələcək tədqiqatlar üçün elmi tövsiyyələr və təkliflər vermək dissertasiyanın əsas məqsəd və vəzifəsidir.

**Tədqiqat metodları.** Tədqiqatın metodoloji əsasını obyektivlik və tarixilik prinsipləri təşkil edir. Tədqiqatda istifadə olunan elmi metodlar öyrənilən hadisələrin, təzahürlərin yaranması və inkişafı prosesinin konkret tarixi şərait daxilində öyrənilməsinə, obyektiv tədqiq olunmasına xidmət edir. Eyni zamanda hipotetik-deduktiv (müqayisəli) və elmi analiz kimi aktual metodlardan istifadə edilmişdir. Tədqiqatda daha çox istifadə edilən metodlardan biri müqayisəli-tarixi metoddur, digər istifadə edilən metod tarixşünaslıqda ana xətti hesab edilən tənqidi yanaşma metodudur.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Bu müddəalar aşağıdakılardan ibarətdir:

- Tarixi mənbələr Qarabağın "Dağlıq" və "Düzən" Qarabağa bölünməsinin sonradan siyasi məqsədlər üçün ortaya atılmış qondarma bölgü olduğunu isbat edir. Tarixdə yalnız Qarabağ və Arran Qarabağı ifadələri mövcud olmuşdur;
- Qarabağda 1923-cü ildə Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması Qarabağ problemini nəinki həll etməmiş və hətta bugünə qədər ermənilərin Azərbaycana qarşı ərazi iddialarının istinad mənbəyi olmuşdur;
- Azərbaycan Xalq Cümhuriyyətin mövcud olduğu dövrdə ermənilərin Qarabağla bağlı hər hansı bir ərazi iddiası yersiz hesab edilmiş, istər AXC-nin yaranışından süqutuna qədər, istərsə də mühacirət dövründə cümhuriyyət dövrü mütəfəkkirlərimiz elmi faktlara söykənərək ermənilərin iddialarının saxta olduğunu əsaslandırmışlar;
- Sovet işğalı dövründə Dağlıq Qarabağla bağlı ermənilər Bakıda kitab nəşr edib tariximizi saxtalaşdıranda sovet dövründə "xüsusi ola-

raq yetişdirilən" tarixçilərimiz əsas diqqətini ya Qarabağ bolşeviklərinin sovet hakimiyyətinin qələbəsi uğrunda mübarizəsinə, ya da Qarabağda təsərrüfat həyatının tədqiqinə dair əsərlərə həsr edirdilər;

- 1991-ci ildən etibarən vətən tarixşünaslığında Qarabağ probleminin yaranmasında ermənilərin fitnəkar və işğalçı mövqeyinə qarşı təbliğat yönümlü əsərlər daha çox üstünlük təşkil etsə də, mənbələrdən çıxarışlarla Qarabağ məsələsinə dair faktoloji materialların toplanması və beynəlxalq ictimaiyyətə daha geniş şəkildə təbliğində boşluqlar qalmaqdadır;
- Qərb tarixçilərinin əsərlərində bədnam qonuşlarımızı "xristian həmrəyliyi" mövqeyindən çıxış edərək müdafiə edənlər əksəriyyət təşkil edir;
- Rusiya tarixşünaslığında tədqiqata cəlb etdiyimiz əsərlərin əksəriyyətində daha çox rus-erməni əməkdaşlığı ön plan çıxır və problemin tam şəkildə həllinin Rusiya istəmədikcə mümkünsüz olduğu fikrinin təlqin edilməsinə çalışılır;
- Erməni tədqiqatçılarının əsərləri Azərbaycana qarşı ərazi iddialarının uydurma tarixi faktlara əsaslanaraq saxtalaşdırılması məqsədi daşıdığına görə elmi obyektivlikdən çox uzaqdır;
- Etnik kimlik amilinin mühüm rol oynadığı İran tarixşünaslığında Qarabağ probleminə münasibətdə mənşəcə fars olan müəlliflərin əsərlərində dövlət siyasətinə uyğun olaraq əsasən "erməni sevgisi" zəminində problemə subyektiv yanaşma mövcuddur;
- Türkiyə tarixşünaslığında Azərbaycanın mövqeyi dəstək ifadə olunduğu kimi, Ermənistanın mövqeyi işğalçı tərəf kimi pislənir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işində qarşıya qoyulan bütün məsələlər elmi cəhətdən araşdırılarkən,tarixi əsərlərin və ilk mənbələrin məlumatları əsas tutulmuşdur. Qarabağ probleminin vətən və xarici ölkə tarixşünaslığında tədqiqi Azərbaycan tarixşünaslığında ilk dəfə hərətəfli, məqsədyönlü və kompleks şəkildə araşdırılıb və tədqiqatın gedişində aşağıdakı elmi yeniliklər əldə olunub:

- Tədqiqat prosesinə indiyə qədər Azərbaycan tarixçiləri tərəfindən tədqiq edilməyən mənbələrin və əsərlərin, o cümlədən türk, rus, fars, ingilis və erməni tədqiqatçılarının əsərlərinin Azərbaycan di-

linə tərcümə edilərək, hər tərəfli araşdırılması və tənqidi ümumiləşdirilmələrin aparılması;
- Qarabağ problemi ilə bağlı erməni tarixçilərinin saxtakarlığının və qərəzli iddialarının tam əsassız olmasının tutarlı dəlillərlə sübuta yetirilməsi;
- Qarabağ probleminin tarixşünaslığı sahəsində Azərbaycan tarixçilərinin,xüsusilə son illərdəki nailiyyətlərinin və nöqsanlarının tənqidi yanaşma əsasında dəyərləndirilməsi;
- İlk dəfə olaraq Qarabağ probleminin tarixi ilə bağlı İran tarixşünaslığının kompleks şəkildə elmi tədqiqata cəlb olunması;
- İlk dəfə olaraq Qarabağ probleminin tarixi ilə bağlı Avropa və Amerika tarixşünaslığının elmi tədqiqata cəlb olunması;
- İlk dəfə olaraq Qarabağ probleminin tarixi ilə bağlı Rusiya tarixşünaslığının elmi tədqiqata cəlb olunması;
- İlk dəfə olaraq Qarabağ probleminin tarixi ilə bağlı Türkiyə tarixşünaslığının elmi tədqiqata cəlb olunması;
- Problemin tədqiqi sahəsində əldə edilmiş elmi qənaətlərin ardıcıl, sistemli, həm də konkret şəkildə ümumiləşdirilməsi.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işinin materiallarından və əldə olunmuş elmi nəticələrdən ali məktəblərdə, seminar və məşğələlərin keçirilməsində, tarix müəllimləri üçün metodik vasitələrin hazırlanmasında istifadə oluna bilər. Dissertasiyanın materiallarından həmçinin orta məktəblərdə Qarabağ tarixinin, ali məktəblərdə isə tarixşünaslıq və tarix fənninin tədrisində istifadə edilə bilər. Tədqiqatdakı müddəalardan və nəticələrdən geniş oxucu kütləsi ilə yanaşı, beynəlxalq və regional məsələlərlə bağlı dövlət və qeyri-dövlət təşkilatları, Xarici İşlər Nazirliyi, Milli Məclis, siyasi partiyaların xarici əlaqələr şöbələri öz praktiki fəaliyyətində faydalana bilərlər.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Tədqiqat işi Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Mənbəşünaslıq, tarixşünaslıq və metodika" kafedrasının 3 aprel 2023-cü il tarixli iclasında müzakirə edilmiş və müdafiəyə buraxılmaq üçün məsləhət görülmüşdür. Dissertasiya işinin əsas məzmununu əhatə edən müddəaları müəllifin elmi məqalələrində, həmçinin Bakı Dövlət Universitetinin Tarix fakültəsində, ölkənin digər elm ocaqlarında və tədris müəssisələrində, habelə ölkə hüdudlarından kənarda təşkil olunmuş elmi konfranslardakı çıxışlarında əks olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Mənbəşünaslıq, tarixşünaslıq və metodika" kafedrasında yerinə yetirilib.

**Dissertasiyanın struktur bölmələri daxil olmaqla ümumi həcmi.** Dissertasiyanın ümumi həcmi 282 622 işarədən (ədəbiyyat siyahısı istisna olmaqla) ibarətdir. Giriş: işarə sayı – 32462, I fəsil: işarə sayı – 31359, II fəsil: işarə sayı – 84184, III fəsil: işarə sayı – 118981, nəticə: işarə sayı – 15636.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı ətraflı şəkildə şərh edilərək əsaslandırılır. Bu hissədə dissertasiya işinin xronoloji çərçivəsi, öyrənilmə səviyyəsi, mənbə bazası barədə məlumat verilir, məqsəd və vəzifələri müəyyən olunur, elmi yeniliyi əsaslandırılır, metodoloji əsasları, nəzəri və praktiki əhəmiyyəti qeyd olunur, dissertasiyanın aprobasiyası və quruluşu haqqında məlumat verilir.

***"Dağlıq Qarabağ ifadəsi"*** adlanan birinci fəsil iki yarımfəsildən ibarətdir. *"Mənbələrdə Dağlıq Qarabağ adı"* adlanan birinci yarımfəsildə ilk öncə Qarabağ adına izah verilir və bu adın yayılma arealına, mənbələrdə istifadə formasına nəzər salınır. "Qarabağ" sözünün "böyük bağ", "sıx bağ" və s. bu kimi mənaları ifadə etməsi, Azərbaycanın ayrılmaz tərkib hissəsi Qarabağın özü kimi adının da xalqımızın təfəkkürünün məhsulu olması bir daha isbat edilir.[36] Bir başqa mühüm faktor kimi "Qarabağ" adının qıpçaq tayfalarından eyni adlı tayfa ilə bağlı olmasına da bu yarımfəsildə diqqət çəkilir.[37] Daha sonra "Dağlıq Qa-

---

[36] Бартольд, В.В. Сочинения: [В 9 т.] / В.В.Бартольд. – Москва: Из-во вост. лит., – т.2, ч.1. – 1963. – с.735; Бартольд, В.В. Сочинения: [В 9 т.] / В.В.Бартольд. – Москва: Наука, – 1974. – с.214; Mahmudov, Y.M., Şükürov, K.K. Qarabağ: Real tarix, faktlar, sənədlər / Y.M.Mahmudov, K.K.Şükürov. – Bakı: Təhsil, – 2005. –s.11

[37] Баскаков, Н.А. Введение в изучение тюркских языков / Н.А.Баскаков. – Москва, – 1969, с.237; Гаджиев, И. Село Карабаглар и мавзолей в исторических источниках//– Москва: İRS-Наследие. – 2017. № 5, – с.26-30; Григорьев, В.Г. Статистическое описание Нахичеванской провинции / В.Г.Григорьев. – Санкт-Петербург: тип. Деп. внеш. торг., – 1833. – с. 32.

rabağ" istilahının heç bir tarixi mənbəyə söykənmədiyi və siyasi termin kimi XX əsrdə ortaya atılması qeyd edilir. Yarımfəslin sonunda belə qənaətə gəlinir ki, Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması ilə əslində XX əsrin 20-ci illərinin "Qarabağ problemi"nin özülü qoyulmuşdur. Qərb dövlətlərinin və Rusiyanın himayəsi ilə Azərbaycan öz tarixi torpaqlarını hissə-hissə itirmiş, Qarabağda bu cür bir vilayətin yaradılması gələcək üçün ermənilərin Azərbaycana qarşı ərazi iddialarının istinad mənbəyi olmuşdur. Nəticədə XX əsrin əvvəllərindən başlanan bu siyasət əsrin sonlarına yaxın Azərbaycanın öz tarixi torpaqlarının daha 20 faizindən məhrum olması ilə nəticələndi. 1 milyondan artıq yurddaşımız öz doğma torpağından didərgin, qaçqın düşdü və köçkünə çevrildi.

*"Dağlıq Qarabağ termininin tədqiqat əsərlərində izahı"* adlanan ikinci yarımfəsildə məhz Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu dövrdə ermənilər tərəfindən "Dağlıq Qarabağ" ifadəsinin yavaş-yavaş siyasi dövriyyəyə daxil edilməsi və daha çox istifadə edilməyə başlanması qeyd edilir.[38] Bu da ermənilərin Cənubi Qafqazda ilk dəfə özlərinə dövlət yaratmaq istəyi və bacardıqca qonşular hesabına öz ərazisini formalaşdırmağa çalışmasından qaynaqlanırdı. Təsadüfi deyil ki, XX əsrin ortalarından başlayaraq Dağlıq Qarabağ anlayışı və bu anlayışın siyasiləşməsinə zəmin verən DQMV-nin tarixi erməni tarixşünaslığında, erməni müəllifləri tərəfindən qəddarlıqla saxtalaşdırıldı. S.T.Yeremyan, A.N.Ter-Gedendiyan, A.Ş.Mnasakanyan, V.A.Ulubabyan, A.A. Xaçaturyan, Q.S.Svazyan, A.A.Akopyan, S.Vartanyan, Q.Qaloyan, Q.B.Abramyan, Q.A.İonesiyan, M.Mkrtıçyan və başqalarının əsərlərinə istinad edən müasir erməni tarixçiləri – Aqanbekyan, Hambarsumyan, İkityan, Z.Balayan, S.Kaptukiyan və başqaları guya tutarlı, "dəqiq" faktlara istinad əsasında tarixi "tədqiq" edirdilər. Böhtan, yalan və uydurmaların əksəriyyəti həmin "əsərlərə" əsaslanırdı.[39] Bu yarımfəsildə aparılan tədqiqatın yekununda məlum

---

[38] Шадунц, С. Карабах // К истории образования Нагорно-Карабахской автономной области Азерб. ССР. 1918-1925. Документы и материалы. – Баку, – 1989, – с.135-137.

[39] Məmmədov, N.R. Azərbaycan SSR Dağlıq Qarabağ Muxtar Vilayəti iyun 1941 - dekabr 1950-ci illərdə / N.R.Məmmədov. – Bakı: Elm, – 2006. – s.12.

olur ki, "Dağlıq Qarabağ" anlayışı erməni daşnakları tərəfindən yaradılmışdır. Ümumiyyətlə, bu anlayış coğrafi baxımdan reallıqda Yuxarı Qarabağa daxil olan əraziləri belə əhatə etmir. Diqqət etsək görərik ki, "Dağlıq Qarabağ" adlı ərazi çar Rusiyasının köçürmə siyasəti nəticəsində Qarabağda ermənilərin kütləvi yaşayışının təmin edildiyi xüsusi əraziləri ehtiva etmişdir. Bu da azmış kimi rus dilinə "Naqornıy Karabax" kimi tərcümə edilən Dağlıq Qarabağ beynəlxalq sənədlərdə tərcümə olunumadan məhz ruscada olduğu variantda təqdim edilərək beyinlərə yeridilmiş və təbliğ edilmişdir. Bu gün Dağlıq Qarabağ problemi müzəffər ali baş komandan İlham Əliyevin rəhbərlik etdiyi "Dəmir Yumruq" əməliyyatı ilə həllini tapmış olsa da, gah rus, gah fars, gah da qərb mətbuatında "Dağlıq Qarabağ" ifadəsinə hələ də müraciət edilməkdədir.

***"Qarabağ problemi vətən tarixşünaslığında"*** adlanan ikinci fəsil üç yarımfəsildən ibarətdir. *"Cümhuriyyət xadimlərinin tədqiqatlarında Qarabağ məsələsi"* adlanan birinci yarımfəsildə xüsusilə Məhəmməd Əmin Rəsulzadə, Yusif Vəzir Çəmənzəminli, Mirzə Bala Məmmədzadə, Rəşid bəy İsmayılov, Cahangir Zeynaoğlu, Əhməd bəy Ağaoğlu[40] kimi görkəmli Azərbaycan mütəfəkkirlərinin əsərlərinə istinadən problem tədqiq edilmişdir. Qeyd edək ki, Cümhuriyyət hökuməti bütün fəaliyyəti boyunca Qarabağın Azərbaycanın tərkibində qalmasından ötrü mübarizə apardı. Çünki həmin dövrdə Qarabağın general-qubernatoru Xosrov bəy Sultanovun da qeyd etdiyi kimi nəinki Qarabağda, hətta *"Ermənistan dediyimiz yerlərdə də müsəlmanlar əhalinin*

---

[40] Rəsulzadə, M.Ə. Əsərləri: [5 cilddə] / M.Ə.Rəsulzadə. – Bakı: Təhsil, – c.1. – 2014. – 480 s.; Rəsulzadə M.Ə. Əsərləri: [5 cilddə] / M.Ə.Rəsulzadə. – Bakı: Təhsil, – c.4. –2014. – 416 s.; Rəsulzadə M.Ə. Kənddə Müsibət // İrşad. – 1906, 5 yanvar. – s. 2; Rəsulzadə M.Ə. Rus imperializmi həqqində // Açıq söz. – 1917, 31 may. – s 2; Çəmənzəminli, Y.V. Əsərləri: [3 cilddə] / Y.V.Çəmənzəminli. – Bakı: Avrasiya press, – c.3. – 2005. – 440 s.; Məmmədzadə, M.B. Ermənilər və İran. Əsgi əlifbadan çevirəni, ön söz və lüğətin müəllifi. A. Paşayev; Red. M. Əsədova / M.B.Məmmədzadə. – Bakı: Azərnəşr, – 1993. – 42 s.; İsmayılov, R.Ə. Azərbaycan tarixi / R.Ə.İsmayılov. – Bakı: Azərnəşr, – 1993. – 163 s.; Zeynaloğlu, C. Müxtəsər Azərbaycan tarixi. – Bakı: Azərbaycan Dövlət Kitab Palatası, – 1992. – 144 s.; Mirəhmədov, Ə.M. Əhməd bəy Ağaoğlu / Ə.M.Mirəhmədov. – Bakı: Ərgünəş, – 2014. – 264 s.

*əksəriyyətini təşkil edirdi”*.[41] Bütövlükdə, Cümhuriyyət xadimlərinin istər siyasi arenada, istərsə də yazdıqları əsərlərdə və səsləndirdikləri fikirlərdə nəzərdən keçirilən müddəalar göstərir ki, Cümhuriyyətin mövcud olduğu dövrdə ermənilərin Qarabağla bağlı hər hansı bir ərazi iddiası yersiz hesab edilmişdir. Cümhuriyyətin süqutuna qədər bu fikirlərində sabitqədəm olan bu dövr mütəfəkkirlərimiz beynəlxalq aləmdə də sona qədər bu mövqelərini sadəcə dildə deyil, əməlləri ilə də müdafiə etmişdilər.

*“Sovet dövrü tədqiqatlarında”* adlanan ikinci yarımfəsildə 1920-ci il 28 aprel tarixində Azərbaycan Xalq Cümhuriyyətinin süqutu və Azərbaycanda Sovet hakimiyyətinin qurulmasından 1991-ci il 18 oktyabrda Azərbaycanın müstəqilliyini elan etməsinə qədər olan bir dövrü əhatə edən böyük bir xronoloji çərçivədə vətən tarixşünaslığında Dağlıq Qarabağ problemi ilə bağlı aparılan tədqiqat əsərləri təhlil edilmişdir. Xüsusilə Dağlıq Qarabağ Muxtar Vilayətinin yaranması və sonrakı inkişafı haqqında Paşa Əliyevin, İqrar Əliyevin, İbrahim Müslümovun, Kamil Mehdiyevin, Rəftar İmanovun, İrina Mosesovanın və başqalarının kitab və məqalələrinə diqqət yetirilmişdir.[42] Ümumiyyətlə, Qarabağ problemi ilə bağlı sovet dövrü tariximizdəki boşluğa nəzər salmaq üçün sadəcə kiçik bir müqayisə aparmaq yetərlidir. Diqqət etsək görərik ki, hələ 1925-ci ildə Bakıda Azərbaycan Tədqiq və Tətəbbö Cəmiyyəti xətti ilə “Dağlıq Qarabağ”la bağlı çap olunan ilk əsərin[43] müəllifi erməni - Q.A.Koçaryan, 1960-cı ildə “Dağlıq Qarabağ Muxtar Vilayəti” adlı yenə Bakıda çap olunan ikinci əsərin[44] müəllifi də erməni – N.S.Şahnəzərov idi. Bu yarımfəsildən məlum olur ki, Dağlıq

---

[41] Nəbibəyli, Z. Sultan bəy və Xosrov bəy qardaşları. Bakı: Nurlar, 2011. – s.138

[42] Əliyev, İ.H. Dağlıq Qarabağ. Tarix. Faktlar. Hadisələr / İ.H.Əliyev. – Bakı: Elm, – 1989. – 120 s.; Əliyev, P.M. Qarabağ bolşevikləri sovet hakimiyyətinin qələbəsi uğrunda mübarizədə / P.M.Əliyev. – Bakı: Azərnəşr, – 1963. – 104 s.; İmanov, R.C. Sosialist Dağlıq Qarabağı-60 il / R.C.İmanov. – Bakı: Azərbaycan SSR Maarif Nazirliyinin mətbəəsi, – 1981. – 52 s.; Mehdiyev, K. Stepanakert / K.Mehdiyev. – Bakı: Uşaqgəncnəşr, – 1960. – 34 s.; Нагорный Карабах: разум победит. Документы и материалы. – Баку, – 1989. – 444 c. və b.

[43] Кочарян, Г.А. Нагорный Карабах / Г.А.Кочарян. – Баку: Общество Обследования и Изучения Азербайджана, – 1925. – 68 с.

[44] Шахназаров, Н.С. Нагорно-Карабахская автономная область / Н.С.Шахназаров. – Баку: Азернешр, – 1960. – 83 с.

Qarabağla bağlı ermənilər Bakıda kitab nəşr edib tarixi saxtalaşdıranda sovet dövrü tarixçilərimiz əsas diqqətini ya Qarabağ bolşeviklərinin sovet hakimiyyətinin qələbəsi uğrunda mübarizəsinə yönəldir, yaxud da Qarabağda əkin və maldarlıq üçün təsərrüfat həyatının tədqiqinə dair əsərlər həsr etməklə məşğul idilər. Dağlıq Qarabağ problemi erməni tarixçilərin əsərləri ilə daha da dərinləşib ən gərgin həddə çatdıqdan sonra, yəni XX əsrin 80-cı illərinin sonundan başlayaraq tarixşünaslığımızda bu məsələyə xüsusi diqqət ayrılmağa başlandı..

*"Müstəqillik dövrü tədqiqatlarında"* adlanan üçüncü yarımfəsildə Azərbaycan Respublikasının müstəqilliyinin ilk illərindən etibarən Qarabağla bağlı yazılan silsilə tədqiqat əsərləri təhlil edilir. Xüsusilə də, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin, sonrakı dövrdə isə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bu istiqamətdə diqqət və qayğısının artmasına diqqət çəkilir. 2011-ci il 27 aprel tarixində ölkə başçımızın AMEA-nın illik ümumi yığıncağında etdiyi çıxışda tarixçilər qarşısında nəinki Qarabağın, bütövlükdə Azərbaycan tarixinin son iki yüz illik dövrünün obyektiv şəkildə araşdırılması üçün daha konkret vəzifələr qoymasının əhəmiyyəti də xüsusilə vurğulanır.[45] Təsadüfi deyil ki, 2011-ci ildən sonra Qarabağa dair yüzlərlə kitab nəşr olunmuşdur. Bu əsərləri nəzərdən keçirdikdə aydın olur ki, son illərdə yazılan əsərlərdə Dağlıq Qarabağ probleminin yaranmasında ermənilərin fitnəkar və işğalçı mövqeyinə qarşı təbliğat yönümlü əsərlər daha çox üstünlük təşkil edir. Bu istiqamətdə beynəlxalq arenada aparılan təşviqat kompaniyaları, o cümlədən də Heydər Əliyev fondunun vitse-prezidenti, Fondun RF-dəki Nümayəndəliyinin rəhbəri Leyla Əliyevanın "Xocalıya Ədalət!" kompaniyası çərçivəsində beynəlxalq aləmdə həyata keçirilən təqdirəlayiq tədbirlərdən bəhs edən 3 cildlik əsəri qeyd edə bilərik.[46] Yarımfəslin sonunda haqlı olaraq belə qənaətə gəlinir ki, Qarabağla bağlı yazılan əsərləri və görülən işləri yetərli hesab etmək olmaz. Bunun üçün bu yöndə yeni

---

[45] İlham Əliyev Azərbaycan Milli Elmlər Akademiyasının illik ümumi yığıncağında iştirak etmişdir. 2011, 26 aprel. president.az/articles/2026

[46] Səmədov, V., Vəlizadə, R. Leyla Əliyeva: "Xocalıya Ədalət!" (Beynəlxalq erməni terroruna qarşı yeni strateji model): [3 cilddə] / V.Səmədov, R.Vəlizadə. – Bakı, – 2014, – c.1 – 344 s. – c. 2 – 376 s., – c. 3 – 480 s.

araşdırmalar nəticəsində əldə edilən faktların beynəlxalq aləmdə fasiləsiz təbliği çox mühümdür.

Dissertasiya işinin son fəsli ***"Qarabağ problemi xarici tarixşünaslıqda"*** adlanır. Bu fəsil 5 yarımfəsildən ibarətdir. *"Türkiyə tarixçilərinin tədqiqatlarında"* adlanan birinci yarımfəsildən bəlli olur ki, Türkiyə tarixşünaslığında mövcud fikir "Dağlıq Qarabağ probleminin həlli yolunda beynəlxalq şəraitə uyğun rəftar edib münasib imkan gözləməyə ehtiyac duyulur" istiqamətindədir. Yaranan münasib şəraitdə isə Azərbaycanın Türkiyə ilə birlikdə hərəkət etməsi problemin həllində müsbət nəticə hasil olmasına imkan verəcəkdir. Hərbi yolla münaqişənin həlli istiqamətində Türkiyə tarixşünaslığında müəyyən fikirlər səslənsə də, əksəriyyət etibari ilə tədqiqatçıların çoxu problemin dinc yolla həllinə tərəfdir. Yazılan tədqiqatlarda Ermənistanın mövqeyi işğalçı tərəf kimi pislənir. Hasil olan bir başqa fikir isə ondan ibarətdir ki, bu gün problemin həlli Ermənistandan çox Qərb dövlətləri və RF-nin timsalında xristian təəssübkeşliyindən asılıdır. Bu gün müsəlman dünyasında baş verən qanlı hadisələrə diqqət etdikdə bu xristian təəssübkeşliyində hər hansı bir dəyişiklik olması real görünmür. Xüsusilə 2020-ci ildəki 44 günlük Vətən müharibəsindən sonra regionda yaranmış yeni siyasi reallıqlar problemin həllinə dair fərqli yanaşmaların formalaşmasına səbəb olmuşdur. Buna baxmayaraq, beynəlxalq güclərin Qarabağ məsələsinə münasibətində ciddi dəyişiklik müşahidə edilmir. Son dövrlərdə Azərbaycan tərəfi bölgədə sülhün və sabitliyin təmin olunması üçün ardıcıl addımlar atsa da, Ermənistanın və bəzi Qərb dairələrinin destruktiv mövqeyi problemi həll etməyi çətinləşdirir.

*"Rusiya tarixşünaslığında"* adlanan ikinci yarımfəsildə tədqiqata cəlb edilən əsərlər rus müəlliflərinin əksəriyyətində daha çox rus-erməni əməkdaşlığının ön plana çıxmasını sübut edir. Yalnız Oleq Kuznetsov[47] kimi istisna tədqiqatçılarda müəyyən qədər hadisəyə obyektiv ya-

---

[47]Кузнецов, О. Нагорно-Карабахский конфликт: Столкновение цивилизаций»? // – Кавказ и Глобализация. – 2013, том 7. вып. 1-2, – с.94-108; Кузнецов, О. Этно-конфессиональные истоки транснационального армянского терроризма (историко-культурологический анализ)// – Баку: Strateji təhlil. – 2016, № 3-4 (17-18), – с. 65-66 və d.

naşma meyli özünü göstərsə də, nəticə etibari ilə Dağlıq Qarabağ probleminin Rusiya tarixşünaslığında tədqiqi bu gün Rusiyanın ATƏT-in Minsk qrupundakı fəaliyyətinə bənzəyir. Yəni problemi həll etmək yox, problemdən RF-nin maraqları naminə yararlanmaqdır əsas məqsəd. Ən obyektiv rus tarixçisi kimi tədqiqatın gedişində nəzərdən keçirdiyimiz Oleq Kuznetsov belə problemin Rusiya tərəfindən yaradılmasını və həllinin Rusiya istəmədikcə mümkünsüz olduğunu "ya hər şey, ya da heç nə" formatını Azərbaycan xalqına təlqin etməyə çalışır.

*"Erməni tarixçilərinin əsərlərində"* adlanan üçüncü yarımfəsildə erməni tədqiqatçılarının əsərlərinin təhlili onu deməyə əsas verir ki, bu əsərlər Türkiyə və Azərbaycana qarşı ərazi iddiaları ilə çıxış etdiyinə görə tarixi gerçəkliyə əsaslanmır. Məsələn, bu əsərlərdə Şərqi Anadolunun Ermənistanın Qərbi kimi qələmə verilməsi, yaxud da guya Osmanlı hökuməti tərəfindən ermənilərə soyqırımlar törədilməsi kimi uydurmalarla yanaşı Azərbaycanın tarixi əraziləri olan Naxçıvan, Zəngəzur və Qarabağ da erməni əraziləri kimi təqdim edilir. Erməni tarixçilərinin Dağlıq Qarabağ tarixinə dair yazdıqları saxta tədqiqatlardan fərqli olaraq Azərbaycan tarixşünaslığında Dağlıq Qarabağın tarixi faktlar əsasında işıqlandırılmış və Dağlıq Qarabağın tarixən Azərbaycan ərazisi olması sübuta yetirilmişdir. Bu işdə alimlərimiz üçün dövlət səviyyəsində yaradılan əlverişli şəraiti də xüsusi olaraq qeyd etməliyik. Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin tariximizin düzgün şəkildə araşdırılması yönündə tarixçilər qarşısında qoyduğu vəzifələrə uyğun olaraq bu gün tarixçi alimlərimiz tarixi mənbələrə, sənədlərə əsaslanaraq Dağlıq Qarabağ tarixini obyektiv şəkildə tədqiq edirlər. Bugün bütövlükdə Qarabağın sosial-iqtisadi, siyasi və mədəni həyatı ilə bağlı obyektivliyi, gerçəkliyi özündə əks etdirən çoxsaylı əsərlər qələmə alınır. Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları başlandığı vaxtdan bu məsələ daha geniş şəkildə araşdırılmağa başlansa da bu gün bu sahədə çox böyük işlər görülmüş və görülməkdədir. Xüsusilə də ermənilərin Azərbaycanın türk-müsəlman əhalisinə qarşı təkcə Qarabağda deyil, müxtəlif bölgələrdə törətdiyi soyqırımları, vəhşiliklər, terror hadisələri böyük ölçüdə ifşa edilir və tarixi həqiqətlər beynəlxalq ictimaiyyətə təbliğ olunur. Bu gün belə nə qədər tarixi faktlar əsasında yüksək elmi-nəzəri əsərlər yazılmış olsa da bu istiqamətdə daha çox iş görülməsinə ehtiyac duyulur. Çünki bu-

gün biz informasiya cəmiyyətində yaşayırıq və haqq davası yalnız silahla deyil, informasiya ilə də aparılır. Çünki Qarabağ həqiqətləri nə qədər çox beynəlxalq ictimaiyyətə düzgün forrmada təbliğ olunsa, bir o qədər də informasiya müharibəsində üstün tərəf biz olarıq.

*"İran tarixşünaslığında"* adlanan dördüncü yarımfəsildə nəzərdən keçirilən əsərlər İran tarixşünaslığında Qarabağ probleminə münasibətin formalaşmasında etnik kimlik amilinin mühüm rol oynadığını göstərir. Belə ki, mənşə etibari ilə fars, erməni olan müəlliflərin əsərlərində təbii olaraq əsasən "erməni sevgisi" zəminində problemə subyektiv yanaşma daha çox duyulur. Azərbaycanın Güneyindən olan soydaşlarımızın əsərlərində isə məsələyə tarixi həqiqətin bərpası baxışından bir istiqamət özünü biruzə verir.

*"Qarabağ problemi Avropa və Amerika tarixçilərinin əsərlərində"* adlanan beşinci yarımfəsildə qərb tarixçilərinin əsərlərinin tədqiqi belə qənaətə gəlməyə əsas verir ki, hər iki tərəfi razı salmaq mövqeyi nümayiş etdirib obyektiv görünməyə çalışan tədqiqatçılar da var, əksinə konkret olaraq münaqişə edən tərəflərdən birini dəstəkləyənlər də var. Təəssüflə qeyd etməliyik ki, bədnam qonşularımızı "xristian həmrəyliyi" mövqeyindən çıxış edərək müdafiə edənlər daha çoxdur. Lakin bu bizə bu istiqamətdə təbliğatımızı davam etdirməyimizə mane olmamalıdır. Ermənilər yalanı təkrarlaya-təkrarlaya avropalılara qəbul etdirməyə nail ola biliblərsə, həqiqəti dünyaya çatdırmaq üçün biz daha çox çalışmalıyıq. Siyasi maraqları da diqqətdə saxlayıb təbliğatımızı davamlı və fasiləsiz formada təşkil etməliyik ki, çox gec başladığımız informasiya müharibəsində nəyəsə nail ola bilək. Xüsusilə son dövrlərdə Azərbaycanın siyasi və diplomatik səyləri nəticəsində Qarabağ məsələsinin həlli istiqamətində müəyyən irəliləyişlər əldə edilsə də, Ermənistanın qeyri-konstruktiv mövqeyi və bəzi xarici dairələrin ikili standartları problemi hələ də mürəkkəb vəziyyətdə saxlayır. Buna baxmayaraq, Azərbaycanın beynəlxalq aləmdə apardığı informasiya müharibəsi və diplomatik addımlar real nəticələr verməkdədir.

Dissertasiyanın **"Nəticə"** hissəsində tədqiqatın gedişində əldə olunan əsas elmi-nəzəri qənaətlər sistemləşdirilərək ümumiləşdirilir. Tədqiqat işinin nəticəsində bir daha təsdiq edilir ki, "Dağlıq Qarabağ" ifadəsi XX əsrin əvvəllərində ortaya atılmış, erməni müəlliflərinin canfəşanlığı ilə siyasiləşdirilib və etnosizasiya edilib. Qarabağ məsə-

ləsi vətən tarixşünaslığında sovet dövrü tədqiqatlarını nəzərə almasaq obyektiv şəkildə işıqlandırılmışdır. Çünki sovet hökumətinin XX əsrin 20-30-cu illərdə, 40-50-ci illərinin ziyalılarımıza qarşı həyata keçirtdiyi repressiyaları, sürgünləri bütövlükdə tarix elmimizə böyük zərbə vurmuşdur. Məhz bunun nəticəsi idi ki, erməni müəllifləri "Dağlıq Qarabağ" adı altında əsərlər dərc edib mövqe nümayiş etdirən zaman bizim tarixçilərimiz Qarabağda əkinçilik və maldarlığın inkişafı üçün təsərrüfat həyatını tədqiq edib, Qarabağ bolşeviklərinin "sovet hakimiyyətinin qələbəsi"ni təmin etdiyini təbliğ etməklə məşğul idilər. Aparılan tədqiqatın yekununda məlum olur ki, Qərb tarixçiləri içərisində bitərəf görünməyə çalışanlar əksəriyyət təşkil etsə də, Azərbaycanın haqlı mövqeyini dəstəkləyənlər də az deyil. Xarici tarixşünaslıq nümayəndələri içərisində Türkiyə tarixşünaslığı birmənalı olaraq Azərbaycanın haqlı mövqeyini müdafiə edir. Erməni tədqiqatçıları isə istər sovet dövründə, istərsə də Ermənistan Respublikası müstəqil olduqdan sonra Qarabağla bağlı doğru olmayan mövqelərini daim müdafiə etmiş və bunu inkişaf etdirmişdilər. İran tarixşünaslığında milliyətcə Azərbaycan türkü olan tədqiqatçıların əksəriyyəti əsasən problemə obyektiv yanaşdıqları halda, mənşəcə fars olan və İİR-in rəsmi mövqeyini əsərlərində əks etdirən tarixçilər problemə yanaşmada loyal xarakter nümayiş etdirirlər. Bu gün beynəlxalq aləmdə tarixçilərimizin problemi daha sistemli və daha kəsərli faktlara söykənən tədqiqat əsərləri ilə işıqlandırması və bu işi ardıcıl surətdə görməsi müsbət nəticələr əldə etməyə imkan verəcəkdir.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr edilmiş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**


1. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ problemi İran tarixşünaslığında // – Bakı: Tarix və onun problemləri. Nəzəri, elmi, metodik jurnal. – 2018. №3, – s.334-341.
2. Qarabağ toponimi mənbələrdə // Dünyaya İnteqrasiya və elmlərarası əlaqə. Beynəlxalq elmi və praktik internet konfransının materialları, – Bakı: – 3 dekabr – 2020, – s.36-38.
3. Dağlıq Qarabağ termini erməni tarixşünaslığında // Azərbaycanın Dövlət Müstəqilliyinin 30 illiyi. Mənbəşünaslıq və

Tarixşünaslıq elminin uğurları və perspektivləri, – Bakı: – 17 noyabr – 19 noyabr – 2021, – s.27-28.

4. Qarabağ problemi Sovet dövrü tədqiqatlarında // – Bakı: Tarix və onun problemləri. Nəzəri, elmi, metodik jurnal. – 2022. №3, – s.252-259.
5. Dağlıq Qarabağ Muxtar Vilayəti Tarixi Tədqiqatlarda // – Bakı: Zəfər gününə həsr olunmuş Gənc Tədqiqatçıların Elmi məqalələr toplusu. – 2022. II nəşr, – s.157-167.
6. Karabağla ilgili türk basınında yapılan haberlerin muhteva analizi ve bu haberlerin değerlendirilmesi // – Türkiye: Akademik Tarih ve Düşünce Dergisi. – 20 Kasım– 2022. Azerbaycan Kültür Başkenti Şuşa'nın 270. Yılı Armağan Sayısı, – s.152-165.
7. Azərbaycanın Dağlıq Qarabağ bölgəsi erməni tarixçilərinin əsərlərində // – Kiev/Ukraine: Civilizational bridges between people and cultures. – 23 aprel – 2022. N1. – s.111-113.
8. Qarabağ General Qubernatorluğu qələbə tariximizin qızıl hərflərlə yazılan səhifələrindən biri // – Şuşa: Karabakh lll İnternational Congress of Modern Studies in Social Sciens and Humanities "Year of Shusha". – June 7 – June 8 – 2022. Vol. 4. – s.72-74.
9. Türkiyə tarixçilərinin tədqiqatlarında Qarabağ problemi // – Bakı: Tarix və onun problemləri. Nəzəri, elmi, metodik jurnal. – 2023. №3, – s.259-264
10. Qarabağ münaqişəsi ilə bağı Ümummilli Lider Heydər Əliyevin siyasi fəlsəfəsi. // Khoja Ahmed Yasawi 7.İnternational Congress on Scientific Research – Mingəçevir: –24-25 fevral – 2023, – s.138-139.
11. Dağlıq Qarabağ problemi Rusiya tarixşünaslığında // – Gəncə: Xəbərlər Məcmuəsi. – 2023 – AMEA "İctimai və humanitar elmlər seriyası". №5, – s.220-225.
12. Karabağ Sorunu Avrupalı ve Amerikalı Tarihçilerin Çalışmalarında // – Tokat/Türkiye: İnternational 3rd Tokat Scientific Researches Congress. –28-30 august – 2024, – s.68-69.

Dissertasiyanın müdafiəsi 29 may 2025-ci il tarixində saat 13:00-da Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu nəzdində fəaliyyət göstərən BED 1.30/1 Birdəfəlik Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Bakı, AZ 1073, H.Cavid prospekti 115

Dissertasiya işi ilə Azərbaycan Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun Elmi arxiv və kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 28 aprel 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 03.04.2025

Kağızın formatı: A5

Həcm:45984

Tiraj:100